**UOT 930.25**

***Nurşən Rüstəmova***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** nursen96@mail.ru

# ƏLİAĞA VAHİD MƏDƏNİ İRSİNƏ ARXİVŞÜNASLIQ ASPEKTİNDƏN ELMİ YANAŞMA

**Xülasə:** XX əsr Azərbaycan ədəbiyyat tarixində qəzəlxan şair kimi tanınan Əliağa Vahid yaradıcılığı xüsusi önəm daşıyır. Bu da onun klassik janrda öz müasirlərinə nisbətən daha çox uğur qazandığını sübut etmişdir. O, qəzəllər, lirik və satirik şeirlər müəllifi kimi tanınmışdır

**Açar sözlər:** Əliağa Vahıd, qəzəlxan, arxiv, sənəd, lirik, şair, yaradıcılıq, şeir.

XX əsr Azərbaycan ədəbiyyat tarixində qəzəlxan şair kimi tanınan Əliağa Vahid yaradıcığı xüsusı önəm daşıyır. Buda onun klassik janrda öz müasirlərinə nisbətən daha çox uğur qazandığını sübut etmişdir. O, şirin qəzəllər, lirik və satirik şeirlər müəllifi kimi tanınmışdır.

Əliağa Məmmədqulu oğlu İsgəndərov (Əliağa Vahid) 1895- ci ildə Bakıda dülgər ailəsində anadan olmuşdur. Ailəsinin ağır vəziyyətdə yaşaması onun mükəmməl təhsil almasına imkan verməmişdir. Ə.Vahid yalnız iki il mədrəsədə oxumuşdur. Mədrəsədən ayrılandan sonra bir müddət Haci Mehdiyevin tütun fabrikində fəhlə işləmişdir. Gənc yaşlarında Bakıdakı "Məcməüş-şüəra" ədəbi məclisində iştirak etmiş, Azər (İmaməliyev), Müniri və b. şairlərin təsiri ilə lirik şeirlər yazmışdır. Satirik şerlərində ictimai nöqsanları, mövhumatı, zülm və haqsızlığı ifşa etmişdir. Buna baxmayaraq o zaman Bakıda nəşr olunan “Bəsirət”, “İnqilab”, “Tərəqqi”, “Babayi əmir” kimi qəzet və jurnalları diqqətlə oxumuş, daha çox şeirlə maraqlanmışdır. Bu şeirlərin təsiri ilə onda yazmaqa həvəs oyanmışdır.

Əliağa Vahid 1914 - ci ildən yaradıcılığa başlamışdır. Onun ilk qələm təcrübələri həmin ildə “İnqilab”, “Zəhmət”, “Bayraqı ədalət”, “Bəsirət”, “Tuti”, “Məzəli” kimi qəzet və jurnallarda dərc edilmişdir. “Tamahkarın aqibəti” adlı ilk satirik şeirlər kitabçası 1916-ci ildə çapdan çıxarmışdır. Azərbaycan Sovet hakımıyyəti qələbə çalandan sonra başqa sənətkarlar kimi Ə.Vahıd 1920- ci illəri qəzet və jurnallarında müntəzəm olaraq şeir və felyetonlarla çixiş etmişdir. Həmin mətbuat orqanlarından “Komunıst”, “Maarif və mədəniyyət”, “Şərq qadını”, “Yeni yol”, “Molla Nəsrəddin” və başqalarından Ə.Vahidin xeyli əsəri dərc olunmuşdur. Onun ikinci şeirlər kitabi 1924-cu ildə oxuculara təqdim etmişdir.

Ə.Vahid 1928-1936 ci illərdə “Komunist” qəzetinin redaksıyasında ədəbi işçi və Azərbaycan Dövlət Nəsriyyatinda korrektor vəzifəsində çalışmışdır. Həmin ildən sonra o, heç bir yerdə işləməmiş yalnız bədii yaradıcılıqla məşğul olmuşdur. Şair Böyük Vətən müharibəsi illərində, xüsusən məhsuldar işləmişdir. O, faşizm əleyhinə bir çox şeir və felyeton qələmə almışdır. Əliağa Vahidin şeir və qəzəllər kitabları 1927, 1939, 1943, 1944, 1946, 1954, 1961, 1964 –cu illərə çap edilmişdir.

Ə.Vahid klassik şairlərimizin ən yaxşı tərcüməçilərindən biri kimi də fəaliyyət göstərmişdir. Şairin çoxlu lirik şeirinə musiqi bəstələnmişdir, xanəndələrimiz qəzəllərini seve seve oxuyurlar.

Azərbaycan SSR Ali Soveti Rəyasət heyetinin 17iyul 1943-ci il tarixli fərmanli ilə Ə.Vahid “Azərbaycan SSR Yazıçılar İtiffaqanın üzvu seçildi. Əliağa Vahid 1965-ci il 1 oktyabr Baki şəhərində vəfat etmişdir. Onun məzarı fəxri xiyabandadır. Ə.Vahidin sənədləri Azərbaycan SSR Nazirlər Soveti yanında Arxiv idarəsi qiymət qoyma komissiyasinin 18 may 1966- ci ildə tarixli 8 nömrəli protokolu ilə 749 sənəd, 12 yanvar 1968 ci il tarixli 2 nömrəli protokolu ilə 45 sənəd Azərbaycan SSR Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə qəbul edilmişdir. İsgəndərov Əliağa Vahid Məmmədqulu oğlu ikinci siyahi tərtib olunmuşdur, 8 iyun 1972ci il tarıxlı 776 №li, 21 fevral 1978- ci il tarixli 1001 № li aktlara əsasən cəmi 41 sənəd mühafizə üçun Azərbaycan Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə qəbul edilmişdir. Sənədlər içərisində Ə. Vahidin məktubları, şeirlərinin avtoqrafları, fotoşəkillər vardır. Siyahıda Ə. Vahıdın əsərlərinin nəşri ilə əlaqədar olaraq toplanmış şeirlərinin əlyazmaları, fotşəkilləri və s də daxil edilmişdir. Əliağa Vahıdın rəsmi sənədlərdə təvvəlüdu 1895-ci il qeyd edilir. Bu sənədlər içərisində birinci sayıla biləcək sənədlər Vahıdə 1924-ci ildə oktyabr ayının 4-ində verilmiş 2210 nömrəli şəhadatnamədır. Əliağa Vahıdın üçuncu siyahısı 6 yanvar 1994-vu ildə 144 № li akta əsasən 81 sənəd, 1 kitab mühafizə üçün Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxıvınə qəbul edilmişdir. Bunların içərisində Ə.Vahıdın şeir və qəzəlləri, fotoşəkilləri, tərcümeyi hal və s sənədləri vardır.

Ə.Vahid fonduna daxıl edilmiş sənədlər elmi texniki cəhətdən işləndikdən sonra 1584 sənəd, 300 saxlama vahiddə rəsmiləşdirilmiş. Bu fondlarda Əliağa Vahıdın əlyazmaları, qəzəlləri, satirik şeirləri, lirik şeirləri, mənzum pyeslər, mənzum məktubları, bədii tərcümələri, tərcümeyi hal sənədləri, təsviri daxıldır.

Əliağa Vahidin qəzəlləri müxtəlif illərdə yazdıqı 300-ə yaxın qəzəlinin avtoqraf əlyazması və makına yazıları ADƏİA sənədlərində rast gəlirik. 30-34 saxlama vahidlərindəki qəzəllər toplu halda olduqu üçun onlara ayrı-ayrı “daxili siyahı” tərtib edilmişdir. Bəzən şair qəzəlləri əlyazmalarında həmin əsərin hansi şəxsə ithaf olunduqunu qeyd etmişdir. Siyahıda həmin qeydlər də göstərilmişdir. Qəzəllərin siyahısı ilk misraların baş hərfləri nəzərə alınmaqla əlifba sırası ilə tərtib olunmuşdur. Şairin qəzəlləri “Ahəstə bülbülüm, oxu dildar oyanmasın” Avtoqraf tarıxsız, “Bilməm nə etmışəm yenə yar istəmir məni” Avtoqraf tarıxsız, Bizim də qeyri kim gər olaydı hümmətimiz” Avtoqraf 1919- ci il, “Bir arzuda yoxdu vəsli

yaridən qeyri" Avtoqraf 1958-ci il 18 mart, "Qəzəllər" daxılı siyahı № 3, umumi dəftər əlyazmasi Əliaga Vahıd düzəllişlər etmişdir, "Zulm eyləmək eşq əhlinə, cana nə üçundur"? Avtoqraf əlyazması 30 avqust 1950- ci il, "İlahi gizli deyildir, sənə sədaqətimiz" Avtoqraf tarıxsız fonda mühafizə olunur

Əliağa Vahidin 80-ə yaxın satirik şeiri həcv, meyxana və dini şeirlərinin avtoqraf, makina yazısı ilk misraların baş hərfləri nəzərə alınmaqla əlifa sirası ilə tərtib olunmuşdur. Satirik şeirləri "Aman ay kirpi dayı", "Avtobus", "Ay oğul" Avtoqraf, makına yazısı, düzəlişlə tarıxsız sənədləşdirilmişdir.

Əliağa Vahıdın müxtəlif illərdə qələmə aldıqı lirik şeirlərinə ayri- ayri yazıçı dostlarina həsr etdiyi şeirlər, qoşmaları, nəğmə mətnləri və məzar daşları üçun yazdıqı şeirlərin avtoqraf əlyazması, makına yazısı və qəzet kəsikləri daxildir. Lirik şeirlərinin təribində əlifba sırasına riayət olunmuşdur.

Yazılma tarixi məlum olmayan iki natamam mənzum pyesinin əlyazması və avtoqrafı Əliağa Vahıdın fonduna daxıldır. "Kolxoz" yaxud "Kənddə sinfi mubarizə" adlanan birinci pyesin əlyazmalarında aktyorların rol bölməsi və rejissorun qeydləri vardır. Pyeslər iki saxlama vahidində mühafizə olunur. "Kolxoz" yaxud "Kənddə sinfi mübarizə" 4 pərdəli natamam əlyazması, tarıxsız, pyes fonda mühafizə olunur.

Şairin Bakı və Azərbaycanın müxtəlif rayonlarında yaşayan dostlarına, rəhbər işçilərə yazdıqı mənzum məktublarının avtoqraf və makına yazıları daxıldır. 223-cu saxlama vahıdındə Ələkbər Əhqərənin Əliağa Vahıdə yazılmış olduğu mənzum məktubu daxıldır. Mənzum məktubların siyahısı müəlliflik əlaməti nəzərə alanaraq əlifba sirası ilə tərtib olunmuşdur. Aslanov Əbulfəz avtoqraf, makına yazısı, Qulam, Suleyman və Əsəd adlı dostlarına avtoqraf 5 noyabr 1944- ci il, Azərbaycan KPMK- nin katibinə makına yazısı 10 iyun 1938 – ci il.

Füzuli ənənələrinin davamçısı olan Vahid müasir Azərbaycan ədəbiyyatında qəzəl janrının görkəmli nümayəndəsidir. Qəzəlləri poetik dilinin sadəliyi, xəlqiliyi və ahəngdarlığı ilə seçilir, xanəndələrin repertuarında mühüm yer tutur. Nizami, Xaqani, Füzuli, Nəvai və başqalarının qəzəllərini Azərbaycan dilinə tərcümələrinin əlyazması və avtoqrafları 240-ci saxlama vahıdındə rəsmiləşdirilmişdir.

Şairə oxuculardan, dostlarından gələn məktublar Ə.Vahıdın fondda yerləşdirilmişdir. Dostları və oxuculardan, döyüşçulərdən gələn 46 məktubun əsillər mövcuddur. Əliağa Vahıd imza atmışdır. Azərbaycan SSR Yazıçılar İttifaqı, Azərbaycan SSR Ali Sovetin Rəyasət Heyəti, M.Qorın adına Ədəbiyyat İnstitutu, İctimayı Təminat Nazırlıyı və başqa idarələrdən Ə.Vahıdə gələn məktublar vardır. Şairin dostlarından Kazım Ziyanın 5 may 1940- ci ildə, Sabit Rəhmanın 22 oktyabr 1942- ci il, Zamanov Abbasın tarıxsız, Əbulbağı Fevzinin 4 oktyabr 1939 – cu il məktubları fonda qorunub saxlanılır.

Fonduna Əliağa Vahıdın şəxsi sənədlərin və ona gələn idarə məktublarının əsilləri daxıldır. Əliağa Vahıdın haqq hesab kitabçaları, avtoqrafla tərcümey halı, şəxsi uçot vərəqəsi, müxtəlif idarə və təşkilatlar aid vəsiqəsi, ezamiyyət vərəqəsi, arayışlar, müxtəlif idarələrlə bağlanmış müqavilələr ərizələr vəkalətnamələr və s

fonda mühafizə olunur. Əliağa Vahıdın əmlak təsəruffat və məişətinə aid sənədlər burada bağ və mənzil şəraitinə aid sənədlər, xəstəlik kağızları, nüsxələr və s daxıl edilmişdir. Həmin sənədlər xronoloji qaydada düzulmuşdur. Bu sənədlərə Əliağa Vahıdın şəxsi vərəqəsi, haqq hesab kitabçaları 4 oktyabr 1941 –cı il, 10 mart 1945 –ci ildə, Ə.Vahidə Azərbaycan Sovet Yazıçılar İttifaqı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti və başqa təşkilatlardan gələn məktublar, Ə.Vahidin Dövlət Kolxoz Sovxoz Teatrına təyin edilməsi haqqında əmrlər və təşəkkur məktubu, Xəstəlik kağızların nüsxələri və başqa sənədlər 1 noyabr 1939- ci il 14oktyabr 1958 – ci ildə fonda daxıl edilmişdir.

Şairin fərdi, dostları və qohumları ilə fotoşəkillərinin əsilləri daxıldır. Həmin bölmədə 52 şəkil və Əliağa Vahıdın karandaşla çəkilmiş portreti vardır. Ə.Vahidin dostları ilə şəkilləri 1911- ci il 1927 ci illəri, Ə.Vahidin fərdi fotoşəkilləri 1939- 1944- cu illəri, Ə.Vahidin ailə üzvləri, qohumları və arvadı Feodosıya Andreyevokin fərdi fotoşəkili toplanmışdır.

Qəzəlxan yaradıcılığına haqqında olan sənədlərdə Ə.Nəzmi, Ə.Dadaşlı, M.Azər, H.Şəfayının Ə.Vahidə həsr etdiyi şeir və qəzəllərin əlyazmaları M.Rzaquluzadənin avtoqrafi ilə "Vahıdın qəzəlləri" adlı məqalə vardır. Şairə Ə.Nəzmi həsr etdiyi şeirlər, əlyazması 1 iyun 1935-ci il, Məşədi Azərin Ə.Vahidə həsr etdiyi qəzəlləri, əlyazması 20 sentyabr 1949 – ci il sənədlər mühafizə olunur.

Əliağa Vahıdın fondunda olan sənədlər içərisində A.Əfəndiyev, S.Suleymanzadə, Kruqlyakov, F. İsgəndərova və başqalarının məktubları müxtəlif şairlərin şeirləri, Ə.Qəmərlinskinin şeir nümunələri toplanmış dəftərləri və s daxıldır. Ə.Qəmərlinskinin dəftərlərində Ə.Vahıdə həsr edilmiş qəzəl və şeirləri vardır. Əliağa Vahıdın fonduna daxıl olan sənədlər onun həyat və yaradıcılığı haqqında geniş məlumat verir. Fonda mühafizə olunan kitab, jurnal, qəzetlərin ayrıca siyahisi da tərtib olunmuşdur.

## Ədəbiyyat:

1. SMADƏİA. F. 2. Siy1. müh.vah.168. v.12
2. SMADƏİA. F. 2. Siy2. müh.vah.168. v.156
3. https://az.wikipedia.org/wiki/%C6%8Flia%C4%9Fa_Vahid
4. https://beypolad.wordpress.com/2017/02/18/fuzuli-yadigari-%C9%99liaga-vahid/#more-443

**Нуршен Рустамова**

**Научный подход к культурному наследию Алиага Вахида**

**Резюме**

В истории азербайджанской литературы XX века особое место занимает творчество Алиага Вахида. Он известен как автор газелей, лирических и сатирических стихов.

**Ключевые слова:** Алиага Вахид, архив, документ, лирика, поэт, творчество, поэзия

**Nurshen Rustamova**

**Scientific approach to AliagaVahid`s cultural heritage**

**Summary**

The creativity of Aliaga Vahid occupies a particular place in the hictory of the XX century Azerbaijani literature. He is known as the author of sweet ghazals, lyric and satirical poems.

**Keywords:** Aliaga Vahid, ghazhkan, arhiv, document, lyric, poet, creativity, poetry.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.04.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.05.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**